# 2023-cü ilin xronikası

**9 yanvar** tarixində Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırov Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vada Cüniçi ilə görüşüb. Görüşdə iki ölkə arasındakı işgüzar əlaqələrdən, o cümlədən gömrük sahəsində Yaponiya Gömrük Əməkdaşlıq Fondunun dəstəyi ilə həyata keçirilən təlim proqramlarından bəhs edilib, həmçinin beynəlxalq tranzitin inkişafında "Orta Dəhliz"in əhəmiyyəti vurğulanıb, bu dəhlizin imkanlarının genişləndirilməsi istiqamətində Yaponiya tərəfindən səsləndirilən fikirlər ətrafında müzakirələr aparılıb.



**14-16 yanvar** tarixlərində Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün reaktiv maddələrin aşkarlanması, bu məqsədilə tətbiq edilən texniki nəzarət vasitələrindən istifadə qaydalarına dair təlim keçirilib. Təlim Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin nəzdində fəaliyyət göstərən bu ölkənin Daxili İşlər Nazirliyinin Beynəlxalq Əməliyyatlar İdarəsinin dəstəyi ilə Cənub Ərazi Baş Gömrük İdarəsinin "Astara" gömrük postunda təşkil olunub. "Agilent Texnologiyalar" şirkətinin mütəxəssisləri tərəfindən keçirilən təlimdə DGK-nın ərazi və ixtisaslaşmış idarələrinin əməkdaşları iştirak edib.

**23 yanvar** tarixində Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırov Ümumdünya Gömrük Təşkilatı (ÜGT) Potensialın Gücləndirilməsi Direktoratlığının direktoru Taeil Kang ilə görüşüb. Görüşdə gömrük sistemində risklərin təhlili, dəyərin müəyyənləşdirilməsi, məlumatların analiz edilməsi və digər sahələrdə Azərbaycan gömrükçüləri üçün təlimlərin keçirilməsi, "Orta Dəhliz" üzrə yükdaşımalarda rəqəmsal həllərin tətbiqi hesabına tranzitin sadələşdirilməsi istiqamətində əməkdaşlığın gücləndirilməsinə diqqət çəkilib, həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb, birgə əməkdaşlığın perspektivləri müzakirə edilib.

**24 yanvar** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərində yerləşən Potensialın Gücləndirilməsi üzrə Regional Ofisində "Virtual Reallıq Təlim Proqramı"nın təqdimatı keçirilib. Təqdimat mərasimində Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırov, ÜGT-nin Potensialın Gücləndirilməsi Direktoratlığının direktoru Taeil Kang, Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi Qulu Novruzov, ÜGT-nin və DGK-nın nümayəndələri iştirak ediblər. Görüşdə ÜGT-nin dəstəyi ilə reallaşdırılan "Virtual Reallıq Təlim Proqramı"nın əhəmiyyətindən bəhs edilib, son zamanlar gömrük sistemində aparılan təkmilləşdirmələrin, tətbiq edilən innovativ layihələrin uğurla reallaşdırılmasında, əməkdaşların potensialının, bilik və bacarıqlarının artırılması işinin təşkilində proqramın mühüm rol oynayacağı vurğulanıb. Sonda Virtual Reallıq Təlim layihəsi barədə videoçarx nümayiş etdirilib, yüklərin

virtual reallıqda yoxlanılmasının icmalının təqdimatı keçirilib, eləcə də layihə barədə ümumi məlumat verilib.

**24 yanvar** tarixində Ümumdünya Gömrük Təşkilatı (ÜGT) Potensialın Gücləndirilməsi Direktoratlığının rəhbərliyi və Koreyanın “HO Entertainment Corp” şirkətinin nümayəndələri Akademiyaya səfər ediblər. Akademiyada gömrük əməkdaşları üçün təşkil edilən və “HO Entertainment Corp” şirkəti tərəfindən təchiz edilən “ÜGT Virtual Reallıq Təlim Proqramı” çərçivəsində baş tutan görüşdə Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, gömrük xidməti general-mayoru Qulu Novruzov, Ümumdünya Gömrük Təşkilatı (ÜGT) Potensialın Gücləndirilməsi Direktoratlığının rəhbəri Taeil Kang, “HO Entertainment Corp” şirkətinin, Dövlət Gömrük Komitəsinin nümayəndələri və Akademiyanın əməkdaşları iştirak ediblər. Görüşdə Azərbaycan gömrük xidməti və ÜGT arasında mövcud əlaqələrdən, Akademiyanın fəaliyyəti, inkişaf istiqamətlərindən, ÜGT-nin kadr potensialının daha da inkişaf etdirilməsində dəstəyindən və əməkdaşlığın perspektivlərindən bəhs edilib.

**8-9 fevral** tarixlərində Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində bu ölkənin Zəkat, Vergi və Gömrük İdarəsinin təşkilatçılığı ilə “Zəkat, Vergi və Gömrük Konfransı” keçirilir. Ümumdünya Gömrük Təşkilatı (ÜGT), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Dünya Bankı və Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı (IRU) kimi bir sıra mötəbər təşkilatların təmsil olunduğu, müxtəlif ölkələrin vergi və gömrük orqanları əməkdaşlarının qatıldığı konfrans keçirilmişdir. Konfransda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırovun rəhbərliyi ilə nümayəndə heyəti də iştirak etmişdir.

**8 fevral** tarixində Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində baş tutan beynəlxalq “Zəkat, Vergi və Gömrük Konfransı” çərçivəsində Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırov Səudiyyə Ərəbistanı Krallığının Zəkat, Vergi və Gömrük İdarəsinin rəhbəri Suhail bin Muhammad Abanmi, Birləşmiş Ərəb Əmirliklərinin Federal Gömrük İdarəsinin baş direktoru Əhməd Bin Ləhəc Əl Fəlasi, İspaniya Gömrük və Aksiz İdarəsinin direktoru xanım Pilar Jurado Borrego, Portuqaliya Vergi və Gömrük İdarəsinin baş direktoru xanım Helena Maria Jose Alves Borges ilə ikitərəfli görüşlər keçirmişdir. Görüşlərdə ölkələrimizin gömrük xidmətləri arasında mövcud əlaqələrin perspektivlərindən bəhs edilib, gömrük işi sahəsində təcrübə mübadiləsinin, əməkdaşlığın daha da genişləndirilməsinə dair fikir mübadiləsi aparılmışdır.



**9 fevral** tarixində Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində baş tutan beynəlxalq “Zəkat, Vergi və Gömrük Konfransı” çərçivəsində Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırov Estoniya Vergi və Gömrük Şurasının baş direktoru Raigo Uukkivi ilə görüşmüşdür. Görüşdə iki ölkənin gömrük orqanları arasındakı mövcud əlaqələrdən məmnunluqla bəhs edilib, qarşılıqlı faydalı layihələr barədə müzakirələr aparılıb. Eyni zamanda Estoniya

gömrük xidmətinin informasiya texnologiyalarının tətbiqi sahəsində əldə etdiyi nailiyyətlərin, hər iki qurumun qabaqcıl təcrübələrinin öyrənilməsi və paylaşılması barədə ilkin razılıq əldə olunmuşdur.

15 fevral tarixində Dövlət Gömrük Komitəsinin rəhbərliyi və əməkdaşları Azərbaycanda Amerika Ticarət Palatasının (AmCham) üzvləri ilə görüşüblər. Görüşdə gömrük orqanlarının biznes nümayəndələri ilə münasibətlərinin işgüzar zəmində qurulmasına, gömrük-biznes əməkdaşlığında açıq, şəffaf dialoqa xüsusi önəm verildiyi bildirilib, qarşılıqlı əlaqələrin səmərəliliyinin artırılması istiqamətində zəruri addımlar atıldığı vurğulanıb, eləcə də biznes nümayəndələrinin təklif və rəyləri dinlənilib, onları maraqlandıran suallar ətraflı cavablandırılıb.

22 fevral tarixində Dövlət Gömrük Komitəsinin Akademiyasında Komitə aparatının struktur bölmələrinin rəhbərləri üçün ÜGT-nin Virtual Reallıq Təlim (VRT) Proqramının təqdimatı keçirilib. Dövlət Gömrük Komitəsinin Akademyasının rəisi, gömrük xidməti general-mayoru Qulu Novruzov Koreyanın “HO Entertainment Corp” şirkəti tərəfindən təchiz edilən “ÜGT Virtual Reallıq Təlim Proqramı” barəsində məlumat verib, VRT avadanlığıının ÜGT-nin Bakı şəhərində yerləşən Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində və Gömrük Akademiyasında quraşdırıldığını bildirib. Həmçinin Akademiyanın fəaliyyəti, beynəlxalq əməkdaşlıq sahəsində nailiyyət və prioritetləri, xarici ali təhsil müəssisələri və gömrük təlimi strukturları, digər beynəlxalq qurumlarla əlaqələri və layihələri barəsində geniş təqdimat nümayiş etdirilib.

23 fevral tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Parlamentinin üzvü, Xarici İşlər Nazirliyinin Avropa və Şimali Amerika üzrə naziri Leo Dokertinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə Komitənin aidiyyəti struktur bölmələrinin rəhbərləri, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Fergus Auld və digər rəsmi şəxslər iştirak edib. Görüşdə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi, Dövlət Gömrük Komitəsi və Böyük Britaniyanın Daxili İşlər Nazirliyi arasında həyata keçirilən layihə çərçivəsində “Nəqliyyat vasitələrinin axtarışı” üzrə təlim mərkəzinin inşası, gömrük əməkdaşların potensialının artırılması istiqamətində təlimlərin keçirilməsi, o cümlədən ikitərəfli qaydada məlumat mübadiləsi mexanizmlərinin gücləndirilməsi üçün hüquqi sənədlərin hazırlanması ətrafında müzakirələr aparılıb.



23 fevral tarixində Dövlət Gömrük Komitəsinin rəhbərliyi ilə Ümumdünya Gömrük Təşkilatı (ÜGT) və Ümumdünya Poçt İttifaqı (ÜPİ) arasında onlayn formatda görüş keçirilib. Görüşdə Dövlət Gömrük Komitəsi sədrinin müavinləri - Bəhruz Quliyev, Cavad Qasımov, Natiq Şirinov, Komitənin aidiyyəti struktur bölmələrinin, Azərpoçt MMC-nin, ÜGT və ÜPİ-nin nümayəndələri iştirak ediblər. Görüşdə poçt göndərişləri vasitəsilə daşınan bağlamaların gömrük rəsmiləşdirilməsinin sürətləndirilməsi məqsədilə məlumat mübadiləsinin səmərəli

şəkildə təşkili, bu istiqamətdə qabaqcıl beynəlxalq təcrübələrin öyrənilməsi və paylaşılması, mövcud qanunvericiliyin tələbləri ilə bağlı məsələlər müzakirə olunub.

**23-24 fevral** tarixlərində Dövlət Gömrük Komitəsinin (DGK) əməkdaşları Avropa İttifaqının (Aİ) Hüquq-mühafizə Təlimləri Agentliyi (CEPOL) tərəfindən İtaliya Respublikasının Roma şəhərində “Saxta mallar: dərman vasitələrinin və kənd təsərrüfatı məhsullarının saxtalaşdırılması və qeyri-qanuni ticarəti" mövzusunda keçirilən təlimdə iştirak ediblər. Təlimə DGK Əməliyyat-İstintaq Baş İdarəsinin rəis müavini, rəis vəzifəsini müvəqqəti icra edən Orxan Nuriyev, Baş İdarənin və Dövlət Gömrük Komitəsi Akademiyasının, həmçinin Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları və Şərq Tərəfdaşlığı ölkələrinin hüquq-mühafizə orqanlarının 30 nümayəndəsi qatılıb.

**27 fevral – 3 mart** tarixlərində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində gömrük dəyərləndirilməsi mövzusunda seminar keçirilib. Seminarda ÜGT-nin mütəxəssisləri Luximan Babajee, Jibbing Luo və Reks Mbilişi tərəfindən gömrük dəyərləndirilməsi sahəsində beynəlxalq hüquqi aktlar, sövdələşmə dəyəri, dəyərləndirmənin alternativ üsulları, dəyərləndirməyə nəzarət, gömrük dəyərləndirilməsi üzrə məcburi qərarlar və başqa mövzularda məlumatlar verilib.

**27-28 fevral** tarixlərində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti Belarus Respublikası gömrük xidmətinin dəvəti ilə bu ölkədə işgüzar səfərdə olub. Fevralın 27-də nümayəndə heyəti Belarus Respublikasının Dövlət Gömrük Komitəsinin sədri Vladimir Orlovskiylə görüşüb. Görüşdə Azərbaycan və Belarus gömrük xidmətləri arasındakı işgüzar əlaqələrin, xüsusilə iqtisadi sahədə əməkdaşlığın gücləndirilməsindəki rolundan bəhs edilib. Tərəflər gömrük sistemində rəqəmsallaşma, informasiya texnologiyalarının tətbiqi, risklərin təhlili, tranzit, poçt daşımaları sahəsində qarşılıqlı məlumat və təcrübə mübadiləsinin təşkilinə dair məsələlər ətrafında müzakirələr aparıblar. Səfər çərçivəsində iki ölkənin gömrük orqanları arasında “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Belarus Respublikasının Dövlət Gömrük Komitəsi arasında gömrük işi sahəsində ikitərəfli əməkdaşlıq Planı” sənədi imzalanıb. Görüşdən sonra Azərbaycan nümayəndə heyətinin üzvləri Belarus gömrük xidmətinin poçt vasitəsilə daşınan bağlamaların rəsmiləşdirildiyi struktur bölməsində olub, gömrük nəzarəti, çeşidləmə proseslərini izləyiblər.



**1 mart** tarixində Dövlət Gömrük Komitəsində ölkəmizdə səfərdə olan Özbəkistan Respublikasının nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə Dövlət Gömrük Komitəsinin sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynov, Komitə sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov, aidiyyəti struktur bölmələrinin əməkdaşları, Özbəkistan Respublikası İqtisadiyyat və Maliyyə nazirliyi yanında

Vergi Komitəsi sədrinin birinci müavini Mubin Mirzəyev, Özbəkistan Respublikası Prezidenti yanında Strateji İslahatlar Agentliyinin idarə rəisi Mansurxoca Yusupxocayev, bu ölkənin müxtəlif dövlət qurumlarının nümayəndələri iştirak ediblər. Tədbir kölgə iqtisadiyyatı ilə mübarizədə vergi və gömrük orqanlarının birgə fəaliyyəti, həyata keçirdikləri nəzarət tədbirləri, idxal-ixrac əməliyyatları zamanı risk profillərinin müəyyənləşdirilməsi və təhlili, qaçaqmalçılıqla mübarizə sahəsində ölkəmizin təcrübəsini öyrənmək, məlumat mübadiləsinin və əməkdaşlığın daha da gücləndirilməsi məqsədilə keçirilib.

**13 mart** tarixində Transxəzər Beynəlxalq "Şərq-Qərb" Orta Dəhlizi boyu "Bir pəncərə" prinsipindən istifadə etməklə tranzit gömrük prosedurunun sadələşdirilməsi layihəsi ilə bağlı region ölkələrinin gömrük xidmətləri rəhbərlərinin görüşündə iştirak etmək üçün ölkəmizə səfərə gələn Tacikistan Respublikası Gömrük Xidmətinin rəisi Xurşed Karimzoda və Özbəkistan Respublikası İqtisadiyyat və Maliyyə Nazirliyi yanında Gömrük Komitəsinin sədri Akmalxuja Mavlonov ilə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov arasında martın 13-də görüş keçirilib. Görüşlərdə ölkələrimiz arasındakı mövcud əlaqələrdən, xüsusilə gömrük sahəsində əməkdaşlığın inkişaf etdirilməsi və şaxələndirilməsindən söz açılıb. Transxəzər Beynəlxalq "Şərq-Qərb" Orta Dəhlizi boyu tranzit prosedurlarının sadələşdirilməsinin əhəmiyyəti və vacibliyi vurğulanıb, həmçinin Transxəzər Rəqəmsal Tranzit Portalının yaradılması istiqamətində görülən işlərdən, portalın mal və nəqliyyat vasitələrinin sərhədkeçmə proseslərinin sürətləndirilməsi, məlumat mübadiləsinin gücləndirilməsi, vaxta və vəsaitə qənaət edilməsi baxımından əhəmiyyətindən danışılıb.

**14 mart** tarixində Transxəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi boyu "Bir pəncərə" prinsipindən istifadə etməklə tranzit gömrük prosedurunun sadələşdirilməsi layihəsi ilə bağlı region ölkələrinin gömrük xidmətləri ekspertlərinin görüşü keçirilib. Görüşə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğız, Özbəkistan, Türkmənistan, Gürcüstan, Tacikistan gömrük xidmətlərinin ekspertləri, aidiyyəti beynəlxalq təşkilatların nümayəndələri qatılıblar. Görüşdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin mütəxəssisləri "Bir pəncərə" prinsipindən istifadə etməklə tranzit məlumatlarının etibarlı və təhlükəsiz elektron mübadiləsinin təmin olunması məqsədilə yaradılacaq Vahid Tranzit Portalı barədə məlumatları diqqətə çatdırıblar. Bildirilib ki, portal gömrük əməliyyatlarının rəqəmsal həllər əsasında daha asan və çevik şəkildə reallaşdırılmasına şərait yaradacaq. Həmçinin Orta Dəhlizi boyu sadələşdirilmiş tranzit qaydasının işlənib hazırlanması və tətbiqi üzrə Fəaliyyət Planının əsas məqsəd və vəzifələrinə dair təqdimat da nümayiş olunub.

**14 mart** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Transxəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi boyu "Bir pəncərə" prinsipindən istifadə etməklə tranzit gömrük prosedurunun sadələşdirilməsi layihəsi üzrə çoxtərəfli görüş çərçivəsində ölkəmizdə səfərdə olan Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya ilə görüşüb. Görüşdə gömrük işinin müxtəlif sahələri üzrə ÜGT tərəfindən verilən rəy və təkliflərin qabaqcıl texnologiyaların, rəqəmsallaşmanın, elektron həllərə əsaslanan tranzit prosedurlarının inkişafında mühüm rol oynadığı vurğulanıb, Transxəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi boyu "Bir pəncərə" prinsipindən istifadə etməklə tranzit gömrük prosedurunun sadələşdirilməsi layihəsindən bəhs olunub. Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



14 mart tarixində Transxəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi boyu “Bir pəncərə” prinsipindən istifadə etməklə tranzit gömrük prosedurunun sadələşdirilməsi layihəsi ilə bağlı region ölkələrinin gömrük xidmətləri rəhbərlərinin görüşündə iştirak etmək üçün ölkəmizə səfərə gələn Qırğız Respublikası Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Komitəsinin sədri Samat İsabekovla Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov arasında görüş keçirilib. Görüşdə iki ölkə arasındakı mehriban dostluq və qardaşlıq münasibətlərindən məmnunluqla bəhs edilib, həmçinin gömrük sahəsində əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyi vurğulanıb.

14 mart tarixində Transxəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi boyu “Bir pəncərə” prinsipindən istifadə etməklə tranzit gömrük prosedurunun sadələşdirilməsi layihəsi ilə bağlı region ölkələrinin gömrük xidmətləri rəhbərlərinin görüşündə iştirak etmək üçün ölkəmizə səfərə gələn Gürcüstan Gəlirlər Xidmətinin rəhbəri Levan Kakava ilə Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov arasında martın 14-də görüş keçirilib. Görüşdə Azərbaycanla Gürcüstan arasındakı mehriban qonşuluq və dostluq münasibətlərinin gömrük sahəsində də səmərəli əməkdaşlığın, işgüzar əlaqələrin formalaşmasına zəmin yaratdığı vurğulanıb. Bütün sahələrdə, həmçinin gömrük işinin təşkili ilə bağlı birgə regional layihələrin həyata keçirildiyi, Orta Dəhliz üzrə tranzit gömrük prosedurunun sadələşdirilməsi istiqamətində atılacaq addımların əməkdaşlığın, təcrübə və məlumat mübadiləsinin gücləndirilməsinə təkan verəcəyi bildirilib.

14 mart tarixində Transxəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi boyu “Bir pəncərə” prinsipindən istifadə etməklə tranzit gömrük prosedurunun sadələşdirilməsi layihəsi üzrə çoxtərəfli görüş keçirilib. Orta Dəhlizi boyu “Bir pəncərə” prinsipindən istifadə etməklə rəqəmsal həllər əsasında tranzit gömrük prosedurlarının sadələşdirilməsi, yük və nəqliyyat vasitələrinin sərhədkeçmə proseslərinin sürətləndirilməsi mexanizmlərinin hazırlanaraq reallaşdırılması məqsədilə keçirilən görüşdə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğız, Özbəkistan, Türkmənistan, Tacikistan və Gürcüstan gömrük xidmətlərinin rəhbərləri və təmsilçiləri, Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Baş katibi Kunio Mikuriya, Türk Dövlətləri Təşkilatının Baş katibinin müavini Mirvoxid Azimov, BMT-nin Avropa üçün İqtisadi Komissiyasının, Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının (IRU) və digər beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.



16 mart tarixində Transxəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi boyu “Bir pəncərə” prinsipindən istifadə etməklə tranzit gömrük prosedurunun sadələşdirilməsi layihəsi üzrə çoxtərəfli görüş çərçivəsində ölkəmizdə səfərdə olan Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya Dövlət Gömrük Komitəsinin Akademiyasında olub. Auditoriyalarda müəllim və tələbələrlə söhbət edən Baş katibə Akademiyanın fəaliyyəti, buradakı təhsilin forma və istiqamətləri barədə məlumat verilib. Kunio Mikuriya, həmçinin tələbələrin əl işlərindən ibarət rəsmlərə baxıb, gömrük əməkdaşlarının texniki nəzarət vasitələrindən istifadə bacarıqlarının təkmilləşdirildiyi laboratoriyada tədris prosesi ilə tanış olub. Sonda ÜGT Baş katibi Akademiyanın tələbələri tərəfindən Novruz bayramı münasibətilə hazırlanan ədəbi-bədii kompozisiyanı izləyib.

16 mart tarixində Transxəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi boyu “Bir pəncərə” prinsipindən istifadə etməklə tranzit gömrük prosedurunun sadələşdirilməsi layihəsi üzrə çoxtərəfli görüş çərçivəsində ölkəmizdə səfərdə olan Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya Azərbaycan Dövlət İqtisad Universitetində olub. UNEC-in rektoru, professor Ədalət Muradov qonaqları salamlayaraq, universitetin fəaliyyət istiqamətləri, ixtisaslar, təhsil formaları, beynəlxalq əlaqələri barədə ətraflı məlumat verib. Ümumdünya Gömrük Təşkilatının Baş katibinin universitetə səfərinin və tələbələrlə görüşünün əhəmiyyətini diqqətə çatdırıb. Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov tələbələrlə görüşdən məmnunluğunu ifadə edərək, UNEC-də aparılan islahatları yüksək qiymətləndirib. UNEC ilə Dövlət Gömrük Komitəsinin Akademiyası arasındakı əməkdaşlığın hər iki tərəf üçün əhəmiyyəti vurğulanıb, tələbələrə Transxəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi və tranzit gömrük prosedurunun sadələşdirilməsi istiqamətində görülən işlər barədə də məlumat verilib. Görüşün sonunda Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya “UNEC-in Fəxri doktoru” diplomu təqdim olunması mərasimi keçirilib.

17 mart tarixində Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə sərhədində yenidən inşa olunan “Xanoba” dövlət sərhədindən buraxılış məntəqəsinin açılış mərasimi olub. Açılış mərasimində Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev, Rusiya Federasiyası Baş nazirinin müavini Aleksey Overçuk, Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov, Dağıstan Respublikası Hökumətinin sədri Abdulmüslüm Abdulmüslümov və digər rəsmi şəxslər iştirak ediblər. “Xanoba” dövlət sərhədindən buraxılış məntəqəsində gün ərzində hər istiqamət üzrə 550-dən artıq yük və 1000-dən artıq minik nəqliyyat vasitəsinin, 30-dan artıq avtobus və 5000 nəfərədək fiziki şəxsin gömrük sərhədindən keçidi nəzərdə tutulub.

30 mart tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov İtaliya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Klaudio Taffuri ilə görüşüb. Görüşdə Azərbaycanla İtaliya arasında qarşılıqlı əməkdaşlıq münasibətlərindən, həmçinin gömrük sferasında daha səmərəli və işgüzar əlaqələrin

qurulmasının vacibliyindən bəhs edilib. İtaliya Respublikasının Azərbaycanın mühüm ticarət tərəfdaşlarından biri olduğu, iki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin inkişafı və tənzimlənməsinə gömrük orqanlarının da mühüm töhfə verdiyi bildirilib. Eyni zamanda iki ölkənin gömrük orqanlarının ilkin məlumat mübadiləsi istiqamətində əməkdaşlığının perspektivləri barəsində müzakirələr aparılıb.

**31 mart** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Pakistan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Bilal Haye ilə görüşüb. Görüşdə iki ölkə arasındakı strateji və qardaşlıq münasibətlərinin iqtisadi-ticari əlaqələrin inkişafına müsbət təsirindən, o cümlədən gömrük sahəsində əməkdaşlığın daha da gücləndirilməsi istiqamətində perspektivlərdən bəhs edilib. Eyni zamanda ölkələrimiz arasında qarşılıqlı ticarət dövriyyəsinin artırılması, idxal-ixrac əməliyyatları üzrə maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**27-31 mart** tarixlərində Belçika Krallığının Brüssel şəhərində yerləşən Ümumdünya Gömrük Təşkilatının Baş qərargahında  Ümumdünya Gömrük Təşkilatının (ÜGT) 43-cü sessiyasının birinci mərhələsi keçirilib. Sessiyada Dövlət Gömrük Komitəsi Əməliyyat-İstintaq Baş İdarəsi rəisinin müavini, rəis vəzifəsini müvəqqəti icra edən Orxan Nuriyev iştirak edib.  Tədbirdə hüquq-mühafizə fəaliyyəti sahəsində ÜGT-nin təşkil etdiyi beynəlxalq əməliyyatlar, hüquq mühafizə imkanlarının artırılması üzrə layihələr, gömrük orqanlarının potensialının gücləndirilməsi, gömrük və aidiyyəti səlahiyyətli qurumlar arasında məlumat və təcrübə mübadiləsi, eləcə də beynəlxalq əməkdaşlıq sahəsində digər məsələlər müzakirə edilib, müvafiq qərarlar qəbul olunub.

**27-31 mart** tarixlərində Avropa İttifaqının (Aİ) Hüquq-mühafizə Təlimləri Agentliyi (CEPOL) tərəfindən  Macarıstanın Budapeşt şəhərində “Narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi" mövzusunda keçirilən təlimdə Dövlət Gömrük Komitəsinin (DGK) əməkdaşları iştirak ediblər. Təlimə Əməliyyat-İstintaq Baş İdarəsinin və Dövlət Gömrük Komitəsi Akademiyasının, həmçinin Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və Şərq Tərəfdaşlığı ölkələrinin hüquq-mühafizə orqanlarının ümumilikdə 24 nümayəndəsi qatılıb.

**4 aprel** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov İsrailin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Corc Dik ilə görüşüb. Görüşdə mövcud qarşılıqlı əməkdaşlıq vəziyyəti, gələcək inkişaf istiqamətləri, gömrük xidmətləri arasında təcrübə mübadiləsi, texnoloji avadanlıqların təminatı barədə müzakirələr aparılıb.




**14 aprel** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Qırğız Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kayrat Osmonaliyev ilə görüşüb. Görüşdə iki ölkə arasında mehriban dostluq və qardaşlıq münasibətlərindən məmnunluqla bəhs edilib, gömrük xidmətləri arasında təcrübə mübadiləsi və gələcək inkişaf istiqamətləri  barədə müzakirələr aparılıb, qarşılıqlı

əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyi vurğulanıb. Həmçinin Transxəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi boyu "Bir pəncərə" prinsipindən istifadə etməklə tranzit gömrük prosedurunun sadələşdirilməsi layihəsi, Orta Dəhlizin cəlbediciliyinin artırılması, əməkdaşlığın gücləndirilməsi, beynəlxalq tranzitin və ticarətin asanlaşdırılması ilə bağlı müzakirələr aparılıb.

**18 aprel** tarixində Azərbaycan-Fransa Ticarət Palatasının təşkilatçılığı ilə Avropa İttifaqı şirkətlərinin nümayəndələrinin Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov ilə görüşü keçirilib. 70-dən çox şirkətin nümayəndələrinin iştirak etdiyi görüşdə gömrük orqanlarının qarşısında duran strateji hədəflər, tamamlanmış və planlaşdırılan layihələr haqqında məlumat verilib, sahibkarlar tərəfindən ünvanlanan suallar ətraflı cavablandırılıb.

**25 aprel** tarixində Türkiyə Respublikasının Daxili İşlər Nazirliyi Təhlükəsizlik Baş İdarəsinin nəzdində fəaliyyət göstərən Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Təlim Akademiyasının (NEA) nümayəndələrinin ölkəmizə səfəri çərçivəsində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə və bu sahədə potensialın gücləndirilməsi istiqamətində əməkdaşlığın və qarşılıqlı əlaqələrin inkişafına dair görüş keçirilib. Görüşdə Dövlət Gömrük Komitəsinin müxtəlif bölmələrinin 40-dan çox əməkdaşı iştirak edib.

**27 aprel** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Ümumdünya Ticarət Təşkilatında (ÜTT) Azərbaycan üzrə işçi qrupun sədri, Türkiyənin ÜTT yanındakı daimi nümayəndəsi Alpaslan Acarsoyun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə son dövrlərdə gömrük sistemində aparılan islahatlar, tətbiq edilən yeniliklər barədə məlumat verilib, prosedurların optimallaşdırılması, şəffaflıq, rəqəmsallaşma, maliyyə dayanıqlılığı, etibarlı hüquq-mühafizə tədbirlərinin həyata keçirilməsi, gömrük dəyərinin formalaşdırılması, risk platformasının tətbiqi istiqamətində atılan addımlardan bəhs olunub, təqdimat nümayiş etdirilib.

**27 aprel** tarixində Moldova Respublikası Maliyyə Nazirliyinin Gömrük Xidmətinin direktoru İqor Talmazanın rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov ilə görüşüb. Görüşdə iki ölkənin gömrük orqanları arasında ilkin məlumat mübadiləsi sahəsində əməkdaşlığın genişləndirilməsi və bu istiqamətdə saziş layihəsinin hazırlanması, güzgülü statistikanın aparılması, Yeni Kompüterləşdirilmiş Tranzit Sistemi (NCTS) barədə Moldova gömrüyünün təcrübəsinin öyrənilməsi, mənşə sertifikatlarının elektron qaydada təqdim edilməsi imkanları, eləcə də operativ istintaq fəaliyyəti və hüquqpozmalara qarşı mübarizədə əməkdaşlığın gücləndirilməsi məsələləri müzakirə edilib. Eyni zamanda Azərbaycan gömrük orqanlarının informasiya texnologiyalarının tətbiqi sahəsində əldə etdiyi nümunəvi təcrübənin Moldova gömrüyü tərəfindən öyrənilməsi və tətbiqinə dair fikir mübadiləsi aparılıb.

**28 aprel** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov ölkəmizdə səfərdə olan Ümumdünya Gömrük Təşkilatının Şura sədri, Bəhreyn Krallığının Gömrük Xidmətinin prezidenti Şeyx Əhməd bin Həməd Əl Xəlifənin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə iki ölkənin gömrük orqanları arasındakı münasibətlər və əməkdaşlığın daha da inkişaf etdirilməsinin perspektivləri müzakirə olunub. Ötən il Dövlət Gömrük Komitəsi ilə Bəhreyn Krallığının Gömrük Xidməti arasında imzalanan "Gömrük Əməkdaşlığı haqqında Anlaşma Memorandumu"nda nəzərdə tutulan məsələlərin reallaşdırılmasının vacibliyi vurğulanıb. Eyni zamanda gömrük nəzarəti, sərnişinlərin və nəqliyyat vasitələrinin sərhədkeçmə proseslərində süni intellektin tətbiqi, hava yolu ilə daşınan tranzit yüklərə nəzarət prosesinin təkmilləşdirilməsi istiqamətində təcrübə və məlumat mübadiləsinin təşkili və inkişaf etdirilməsi, eləcə də qaçaqmalçılığa,

xüsusilə narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə dair məsələlər müzakirə olunub. Həmçinin ÜGT çərçivəsində əməkdaşlığın daha da gücləndirilməsi, təşkilatın Bakıda yerləşən Potensialın Gücləndirilməsi üzrə Regional Ofisinin fəaliyyətinin tənzimlənməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.




**2 may** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Alman-Azərbaycan Xarici Ticarət Palatasının (AHK) icraçı direktoru Tobias Baumanla görüşüb. Görüşdə Dövlət Gömrük Komitəsi ilə AHK arasında uzunmüddətli səmərəli işgüzar münasibətlərdən bəhs edilib və əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyi vurğulanıb. Qeyd olunub ki, Dövlət Gömrük Komitəsinin özəl sektorla tərəfdaşlığının təşviqi istiqamətindəki fəaliyyəti, gömrük sistemində aparılan təkmilləşdirilmələr, tətbiq edilən yeniliklər AHK üzvləri tərəfindən yaxından izlənilir. Həmçinin palatanın ənənəvi “AHK İmpuls” tədbiri çərçivəsində gömrük nəzarəti və rəsmiləşdirilməsi ilə bağlı gömrük-biznes dialoqu və tərəfdaşlığın inkişafı mövzusunda Dövlət Gömrük Komitəsinin rəhbərliyi ilə görüşün keçirilməsinin əməkdaşlığın inkişafı, müasir çağırışların öyrənilməsi, biznesin məlumatlandırılması baxımından əhəmiyyətli olacağı diqqətə çatdırılıb.

**2-4 may** tarixlərində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində “Modifikasiya olunmuş narkotik vasitələrin dövriyyəsinin qarşısının alınması” mövzusunda təlim keçirilib. Təlimdə Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynov, Amerika Birləşmiş Ştatlarının Narkotiklərlə Mübarizə Administrasiyasının nümayəndələri və Komitənin aidiyyəti strukturlarının 40-dan çox əməkdaşı iştirak edib.

**2 may** tarixində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Bakı şəhərində yerləşən Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin təşkilatçılığı ilə “Qabaqcıl informasiya və kibertəhlükəsizlik tədbirləri vasitəsilə sərhəd təhlükəsizliyinin təmin edilməsi” mövzusunda vebinar keçirilib. Vebinara ÜGT-nin Avropa Regionunda təmsil olunan 22 ölkənin gömrük administrasiyalarının 137 nümayəndəsi qatılıb.

**3 may** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Amerika Birləşmiş Ştatlarının Narkotiklərlə Mübarizə Administrasiyasının (DEA) Orta Şərq regionu üzrə rəhbərinin müavini Kristofer Dziedziçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə müasir texniki nəzarət vasitələri ilə təminat, qabaqcıl texnologiyaların öyrənilərək paylaşılması, poçt göndərişləri ilə narkotik vasitələrin daşınmasına qarşı mübarizədə təcrübələrin bölüşülməsi məqsədilə təlimlərin təşkili istiqamətində fikir mübadiləsi aparılıb.

**5 may** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Yaponiyanın xarici işlər nazirinin parlament üzrə müavini, xanım Yuumi Yoşikavanın

rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə ölkələrimiz arasında dostluq münasibətlərindən, iqtisadi-ticari əlaqələrdən bəhs edilib, o cümlədən gömrük sahəsində əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyi vurğulanıb. əmçinin "Azərbaycan Respublikası Hökuməti ilə Yaponiya Hökuməti arasında gömrük məsələlərində qarşılıqlı yardım və əməkdaşlıq haqqında Saziş" layihəsinin hazırlanması, ilkin məlumat və təcrübə mübadiləsi, Transxəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi boyu ölkələrin "vahid tranzit portalı"nın yaradılması, eləcə də informasiya texnologiyaları sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub.

**1-4 may** tarixlərində Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Bəhruz Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Dövlət Gömrük Komitəsi gömrük sistemində süni intellektin tətbiqi sahəsində Türkiyə Respublikasının təcrübəsini öyrənmək məqsədilə bu ölkədə səfərdə olublar. Səfər çərçivəsində nümayəndə heyətinin üzvləri müxtəlif gömrük orqanlarında, o cümlədən Türkiyənin Bolqarıstanla sərhədində yerləşən "Kapıkule" gömrük-sərhəd keçid məntəqəsində olub, süni intellektin tətbiqi ilə risklərin idarəolunması və digər istiqamətlərdə həyata keçirilən əməliyyatlar, onun gömrük işinin səmərəliliyinin artırılmasına təsiri ilə bağlı qardaş ölkənin təcrübəsini öyrəniblər. Həmçinin səfər çərçivəsində hava limanlarında sərnişinləri narahat edən qeyri-qanuni halların aradan qaldırılması və sərnişinlərə dair məlumatların əvvəlcədən paylaşılması ilə bağlı Türkiyə Respublikasının aidiyyəti qurumlarının nümayəndələri ilə müzakirələr aparılıb.

**12 may** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Gürcüstanın Maliyyə Nazirliyi Gəlirlər Xidmətinin nümayəndə heyəti ilə görüşüb. Görüşdə iki dost ölkə arasında bütün sahələrdə, o cümlədən gömrük sahəsində səmərəli əməkdaşlıqdan məmnunluqla bəhs edilib, gömrük işinin təşkili ilə bağlı birgə regional layihələrin həyata keçirilməsinin qarşılıqlı əlaqələrin daha da gücləndirilməsinə zəmin yaratdığı vurğulanıb və Azərbaycan və Gürcüstan arasında mövcud sazişə əsasən inşası nəzərdə tutulan "İpək yolu" - "Abreşumis Qza" gömrük postunun layihəsi ilə bağlı müzakirələr aparılıb.

**25 may** tarixində Bakı şəhərində 10 ölkənin gömrük orqanı nümayəndələrinin iştirakı ilə "Korrupsiyaya qarşı mübarizə" mövzusunda seminar keçirilib. Tədbir BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və Ümumdünya Gömrük Təşkilatının birgə layihəsi olan "Qlobal Konteynerlərə Nəzarət Proqramı" çərçivəsində Dövlət Gömrük Komitəsinin dəstəyi ilə təşkil edilib. Seminarda Azərbaycan, Türkiyə, Pakistan, Gürcüstan, Qazaxıstan, Qırğız, Tacikistan, Türkmənistan, Ukrayna, Özbəkistan gömrük xidmətləri, BMT və ÜGT-nin nümayəndələri iştirak ediblər.

**26 may** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Qlobal DTC-nin (Rəqəmsal Ticarət Dəhlizi) baş direktoru, Sinqapur üzrə proqram təminatçısı və operatoru Vi Tanla görüşüb. Görüşdə multimodal yüklərin daşınması prosesində məlumatların rəqəmsal transformasiyasının həyata keçirilməsi, sənəd dövriyyəsinin optimallaşdırılması, bu sahədə mövcud qabaqcıl təcrübələrin paylaşılması, əməkdaşlığın gücləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Həmçinin Azərbaycan gömrük xidmətinin təşəbbüsü ilə hazırlanan Orta Dəhliz boyu tranzit gömrük prosedurunun sadələşdirilməsi layihəsi və Vahid Tranzit Portalı barədə ətraflı məlumat verilib, yük axınlarının səmərəli şəkildə idarə olunması, elektron məlumat mübadiləsinin gücləndirilməsinə dair məsələlər müzakirə olunub.

**31 may** tarixində Dövlət Gömrük Komitəsində Dünya Bankının Ticarətin asanlaşdırılması üzrə böyük mütəxəssisi Ernani Arqolo Çekuçi Filyonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə ticarətin asanlaşdırılması, sərhədkeçmə prosedurlarının sadələşdirilməsi, ölkəmizin ixrac potensialının artırılması, bu istiqamətlər üzrə beynəlxalq əməkdaşlığın gücləndirilməsinə dair məsələlər müzakirə edilib. Görüşdə, həmçinin dövlət

sərhədindən buraxılış məntəqələrində müvafiq dövlət nəzarəti üzrə fəaliyyətlərin “Bir pəncərə” prinsipi əsasında tənzimlənməsi, risklərin idarəolunması, səlahiyyətli iqtisadi operator institutunun təkmilləşdirilməsi, qanunvericiliyə dair məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

5-6 iyun tarixlərində Gəncə şəhərində Müstəqil Dövlətlər Birliyi (MDB) iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 76-cı iclası keçirilib. İclasda Azərbaycan, Qazaxıstan, Qırğız, Özbəkistan, Rusiya, Belarus, Tacikistan gömrük xidmətlərinin rəhbərləri iştirak edib. İclasdan bir gün əvvəl, 5 iyun tarixində MDB iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının ekspertlərinin iclası keçirilib.



5-8 iyun tarixlərində Gəncə şəhərində Müstəqil Dövlətlər Birliyi (MDB) İştirakçı Dövlətlərinin Gömrük Xidmətlərinin kinoloji bölmələrinin çoxnövçülükdə birincilik üzrə XI yarışı keçirilib. Yarışda Azərbaycanla yanaşı, Qazaxıstan, Qırğız, Rusiya və Özbəkistan gömrük xidmətlərinin kinoloji bölmələri də iştirak edib. Yarış 1 itaətetmə, 4 axtarış - narkotik vasitələrin əl yüklərində, minik avtomobillərində, yük avtomobillərində və ümumi otaq şəraitində axtarışı mərhələsindən ibarət olub. Ümumilikdə yarışlarda 10 baş xidməti axtarış iti iştirak edib. Dövlət Gömrük Komitəsinin Kinoloji Mərkəzinin kinoloqları itaətetmə və əl yüklərində axtarış mərhələlərində 2-ci, yük maşınlarında və otaq şəraitində axtarış mərhələlərində 3-cü yerə layiq görülüblər. Komanda hesabında Rusiya Federasiyasının təmsilçiləri 1-ci, Qazaxıstan və Azərbaycan kinoloqları isə sırası ilə 2-ci, 3-cü yerlərə layiq görülüblər.

12 iyun tarixində Dövlət Gömrük Komitəsinini sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov İran İslam Respublikasının ölkəmizdəki səfiri Seyid Abbas Musəvi ilə görüşüb. Görüşdə iki ölkə arasında mal və nəqliyyat vasitələrinin buraxılış həcmləri barədə məsələlər müzakirə edilib.

12-14 iyun tarixlərində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Bakı şəhərində yerləşən Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün ÜGT-nin ekspertləri Con Kristofer Byrne və Fernando Oliveira tərəfindən “Sərhədlərarası elektron ticarət” mövzusunda seminar keçirilib. Seminarda Dövlət Gömrük Komitəsinin müxtəlif struktur bölmələrində xidmət edən 25-ə qədər gömrük əməkdaşı iştirak edib. Seminarın məqsədi sərhədlərarası elektron ticarət sahəsində qabaqcıl beynəlxalq təcrübələrin öyrənilməsi, kadrların potensialının gücləndirilməsi olub.

16 iyun tarixində Dövlət Gömrük Komitəsində Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin Şərqi, Mərkəzi Asiya və Qafqaz Departamentinin Mərkəzi Asiya və Qafqaz şöbəsinin direktoru Gasavara Kenjinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Görüş Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (JİCA) Araşdırma Missiyasının Orta Dəhliz üzrə logistika imkanlarını araşdırmaq məqsədilə ölkəmizdə səfəri çərçivəsində baş

tutub. Görüşdə Mərkəzi Asiya və Cənubi Qafqaz arasında Xəzər dənizi marşrutu üzrə logistika vəziyyəti təhlil edilib, əlaqəli ölkələrlə əməkdaşlıq imkanları nəzərdən keçirilib, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**19 iyun** tarixində Belçika Krallığının paytaxtı Brüssel şəhərində, Ümumdünya Gömrük Təşkilatının Baş qərargahında ÜGT Siyasi Komissiyasının 88-ci sessiyası keçirilib. Sessiyada Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib. Siyasi Komissiyada COVID-19 layihəsi üzrə yekun hesabat, Harmonik Sistemin strateji baxımdan yenilənməsinə dair məlumatlar, Özəl Sektor Məşvərət Qrupunun iclasına dair Hesabat, Elektron Ticarətlə bağlı yeniliklər, ÜGT-nin Strateji Planının 2023-2024-cü illər üzrə İcra Planı, Yaşıl Gömrük, Həssas Sərhədlər və digər məsələlər müzakirə olunub. Azərbaycan gömrük xidməti Siyasi Komissiyanın üzvü kimi ÜGT Baş katibin məruzəsi, ÜGT-nin 2022-2025-ci illər üzrə Strateji Planı və 2023-2024-cü illər üzrə İcra Planı, Texnologiya və İnnovasiyalar, Yaşıl Gömrük və Həssas Sərhədlər mövzularında mövqeyini, təklif və rəylərini bildirib, müzakirə olunan məsələlərin üzv dövlətlərin gömrük işinin təkmilləşdirilməsinə, beynəlxalq ticarətə mühüm dəstək göstərəcəyini diqqətə çatdırıb.

**19-23 iyun** tarixlərində BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyası (UNESCAP) təşkilatçılığı ilə Tailand Krallığının Banqkok şəhərində və Asiya və Sakit okean regionunda Transsərhəd Kağızsız Ticarətin Asanlaşdırılması üzrə Çərçivə Sazişinin Daimi Komitəsinin 2-ci sessiyası və 22-23 iyun tarixlərində keçiriləcək Kağızsız Ticarət Şurasının sessiyası keçirilmçişdir. Tədbirdə Dövlət Gömrük Komitəsi sədrinin müavini Natiq Şirinovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir.

**20 iyun** tarixində Ümumdünya Gömrük Təşkilatının Gömrük Əməkdaşlıq Şurasının 141/142-ci Sessiyasında iştirak etmək məqsədilə Brüsseldə səfərdə olan Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Norveç Krallığı Gömrük İdarəsinin Baş direktoru Oystein Bormerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə iki ölkənin gömrük orqanları arasında əməkdaşlığın perspektivləri, əlaqələrin daha da genişləndirilməsi, qabaqcıl təcrübələrin bölüşülməsi, xüsusilə gömrük dəyərinin müəyyən edilməsi istiqamətində Norveç təcrübəsinin öyrənilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

**20 iyun** tarixində Ümumdünya Gömrük Təşkilatının Gömrük Əməkdaşlıq Şurasının 141/142-ci Sessiyasında iştirak etmək məqsədilə Brüsseldə səfərdə olan Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Avropa İttifaqının (Aİ) Vergi və Gömrük İttifaqının Baş direktoru Tomas Gerassimosla görüşüb. Görüşdə çoxtərəfli və ikitərəfli platformalar üzrə gömrük məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb, eləcə də ÜGT-nin Bakı şəhərində yerləşən Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin fəaliyyətinin gücləndirilməsinin zəruriliyi qeyd edilib. Görüşdə ölkəmizin Belçika Krallığındakı fövqəladə və səlahiyyətli səfiri Vaqif Sadıqov da iştirak edib.

**22 iyun** tarixində Belçika Krallığının paytaxtı Brüssel şəhərində, Ümumdünya Gömrük Təşkilatının Baş qərargahında ÜGT Gömrük Əməkdaşlıq Şurasının 141/142-ci sessiyası keçirilib. Sessiyada Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib. Sessiyada potensialın gücləndirilməsi, tarif və ticarət, mənşə qaydaları, dəyərləndirmə, malların nomenklaturası və təsnif edilmə məsələləri üzrə hesabatlar dinlənilib və müzakirələr aparılıb. Azərbaycan gömrük xidməti müzakirələrdə iştirak edərək ÜGT Baş katibinin məruzəsi, eləcə də potensialın gücləndirilməsi, tarif və ticarət məsələləri ilə bağlı münasibətini bildirib və təkliflər irəli sürüb, eləcə də, ümumi koordinasiya baxımından ÜGT-nin potensialın gücləndirilməsi üzrə regional ofislərin fəaliyyətinin inkişaf perspektivliyinin vacibliyini vurğulayıb. Sessiyanın son iş günündə büdcə və maliyyə məsələlərinin müzakirəsi aparılıb, ÜGT-nin Baş katibi, ÜGT Gömrük Əməkdaşlıq Şurasının sədri və digər vəzifələrə, eləcə də ÜGT-nin müvafiq

qurumları üzrə seçkilər keçirilib. Ümumdünya Gömrük Təşkilatının Gömrük Əməkdaşlıq Şurasının sədri vəzifəsinə Cənubi Afrika Respublikasının, ÜGT Baş katibi vəzifəsinə isə Amerika Birləşmiş Ştatlarının nümayəndələri seçiliblər. Norveç Krallığı isə ÜGT-nin Avropa regionu üzrə sədr müavini olub. Azərbaycan Respublikası 2023-2024-cü illər üçün ÜGT-nin Maliyyə Komitəsinə üzv seçilib.




**22 iyun** tarixində Belçika Krallığının paytaxtı Brüssel şəhərində, Ümumdünya Gömrük Təşkilatının Baş qərargahında ÜGT Gömrük Əməkdaşlıq Şurasının 141/142-ci sessiyası çərçivəsində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Belçika Krallığının Maliyyə Nazirliyi yanında Baş Gömrük və Aksiz İdarəsinin sədri Kristian Vandervaerenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə qarçılıqlı maraq doğuran məsələlər barəsində fikir mübadiləsi aparılıb.

**23 iyun** tarixində Ümumdünya Gömrük Təşkilatının Gömrük Əməkdaşlıq Şurasının 141/142-ci Sessiyası çərçivəsində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov ilə Birləşmiş Ərəb Əmirlikləri Federal Gömrük İdarəsinin Baş direktoru Ahmed Abdullah Bin Lahej Al Falasi, eləcə də Dubay və Şarjah gömrük administrasiyalarının rəhbərləri arasında ikitərəfli görüş keçirilmişdir. Görüşdə hər iki ölkənin gömrük orqanları arasındakı işgüzar münasibətlərin daha da gücləndirilməsi, əlaqələrin gələcək perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb və məlumat mübadiləsi, gömrük hüquqpozmaları, informasiya texnologiyaları, risklərin idarəolunması sahəsində qarşılıqlı təcrübə mübadiləsinin həyata keçirilməsinə dair məsələlər müzakirə olunub.




**23 iyun** tarixində Ümumdünya Gömrük Təşkilatının Gömrük Əməkdaşlıq Şurasının 141/142-ci Sessiyası çərçivəsində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Yaponiya Maliyyə Nazirliyinin Gömrük və Tarif Bürosunun baş direktoru Kenji Suvazono ilə görüşüb. Görüşdə iki ölkənin gömrük orqanları arasında əlaqələrin daha da dərinləşdirilməsi, Orta Dəhliz boyu tranzit imkanlarının artırılması, gömrük dəyərinin müəyyənləşdirilməsi, potensialın gücləndirilməsi, informasiya

texnologiyaları, ticarətin inkişaf etdirilməsi istiqamətində yeni alətlərin, qabaqcıl təcrübələrin öyrənilməsi ilə bağlı məsələlər müzakirə olunub.

**23 iyun** tarixində Ümumdünya Gömrük Təşkilatının Gömrük Əməkdaşlıq Şurasının 141/142-ci Sessiyası çərçivəsində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Rusiya Federal Gömrük Xidməti rəhbərinin birinci müavini, rəhbər vəzifəsini müvəqqəti icra edən Ruslan Davıdovla görüşüb. Görüşdə Azərbaycandan Rusiyaya kənd təsərrüfatı məhsullarının ixracı zamanı sərhəddə nəqliyyat vasitələrinin növbələrinin yaranmaması, Şimal-Cənub nəqliyyat dəhlizi üzrə məsələlər müzakirə edilib.